# Fəxrimiz, gözəl insan Vahid Qəhrəmanov



Hər dəfə əlimə qələm alıb yazmaq istəyəndə düşünürəm: görəsən insanın taleyində doğulduğu torpağın, daşın, qarlı dağların, gur axan çayların, zümrüd meşələrin, yer altında çağlayan bulaqların nə dərəcədə rolu var? Dünyaya hər cür insan gəlir, hərə bir xislətdə, bir xususiyyətdə. Bəziləri sakit, bəziləri qartal kimi, bəzisi həyata sevinc gətirir, bəzisi isə ağrı və acılar. Kimisi zaman-zaman yaşayir, kimisi ölən kimi yoxa çıxır.

Qarşımda bir şəkil var: gur, ağlı-qaralı saçlar, qalın qaşlar, mülayim gözlər, sərt dodaqlar. Bu şəkildə sanki Qəbələnin bütün təbiət çalarları yerləşib: qarlı dağların da, gur sulu Dəmiraparan çayının sərt görkəmi də, mülayim yayın da, çiskin görkəmli payızın, sərt qışın da. Bu şəkil ölməz insan, Qəbələnin saf suyundan içmiş qartal təbiətli, respublikamızda hüquq elmini və hüquq təhsilinin banilərindən sayılan Vahid Pənah oğlu Qəhrəmanovdur.

Vahid Qəhrəmanov 1900-ci il dekabrın 28-də Şəki mahalının Qutqaşın kəndində (indiki Qəbələ) anadan olmuşdur. İlk təhsilini Şəki gimnaziyasında almış, sovet orqanlarında işləmişdir. 1922—24-cü illərdə orududa hərbi xidmətdə olmuşdur. 1926-cı ildə Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığı yanında hüquq kurslarını bitirdikdən sonra Azərbaycanın müxtəlif rayonlarında müstəntiq, prokuror vəzifələrində, Naxçıvan MSSR Ədliyyə komissarı və prokuroru, daha sonra Azərbaycan SSR prokrorunun baş köməkçisi və müavini vəzifələrində işləmişdir.

1939-cu ildə Baki hüquq məktəbinin direktoru təyin edilir. Müharibə illərindən sonra elmi iş müdafiə edir. Hüquq elmləri namizədi alimlik dərəcəsini alır və o vaxtdan Baki Dövlət Universitetinin cinayət hüququ kafedrasına rəhbərlik edir. 1950-ci ildə Moskvada SSRİ EA-nın Dövlət və Hüquq İnstitunun birləşmiş elmi şurasında "Ailə-kəbin münasibətləri sahəsində cinayətlər" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Vahid müəllim artıq 50 yaşında hüquq elmləri doktoru idi.

1976-cı ildə nəşr etdirdiyi "Azərbaycan SSR cinayət məcəlləsi ümumi hissəsinin kateqoriyası" elmi işi cinayət hüququ üzrə cəzanın müəyyənləşdirməsində böyük rol oynamışdır. Vahid müəllimin ağır zehni, məsuliyyətli pedqoji işini nəzərə alan dövlətimiz onu "Əməkdar hüquqşünas" adına layiq görmüşdür.

1972-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçildi. 40 il müddətində Bakı Dövlət Universtetinin hüquq fakutəsində pedaqoji iş aparmışdır. O, öz işində Azərbaycanın fəxri bir hüquqşünası olmaqla bərabər, həm də mənəviyyatca zəngin bir vətənpərvər, gözəl ailə başçısı idi.

Onun haqqında danışarkən ailəsi haqda danışmamaq mümkün deyil. Oğlu, Cahangir Qəhramanov və qızı Hənifə xanım görkəmli alimlər idi. Övladları, nəvə və nəticələrinin hamsı müxtəlif elm sahələrində tanınmış insanlardır.

Qədirbilən dövlətimiz Azərbaycanın hüquq elminin inkişafında və yüksək ixtisaslı kadrların yetişməsində böyük xidmətləri olmuş görkəmli alim, Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü, hüquq elmləri doktoru, professor Vahid Qəhrəmanovun adını həmişə yca tutmuşdur. Qəbələ şəhərində doğulduğu küçə onun adını daşıyır.

**Çimnaz MÜZƏFFƏROVA,**
**İsmayılbəy Qutqaşınlının xatirə ev-muzeyinin müdiri.**

## TƏQVİMDƏN SƏTİRLƏR

**21 dekabr:** Türk yazıçısı, türk romanının banilərindən biri Namiq Kamal (1840—1888) anadan olmuşdur. Bir neçə qəzetdə əməkdaş, sonra redaktor olub. Yaradıcılığı təqiblərlə qarşılanıb. Mühacirət etməyə məcbur olub. Vətənə qayıdandan sonra da təqib olunub, sürgünlərə göndərilib.

**22 dekabr:** Əfsanəvi partizan, Sovet İttifaqı Qəhrəmanı **Mehdi Hüseynzadə** Bakıda (1918—1944) anadan olmuşdur.

Yazıçı, dramaturq, rejissor, ssenarist, əməkdar incəsənət xadimi **Həsən Seyidbəyli** (1920—1979) Bakıda anadan olmuşdur. Özü bir neçə filmin rejissoru olub, onun ssenariləri əsasında başqa rejissorlar da film çəkiblər. Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri işləmişdir.

Əməkdar jurnalist, ictimai xadim, professor **Nəsir İmanquluyevin** anadan olmasının 100 illiyi tamam olmuşdur. "Kommunist" qəzetində məsul katib, "Bakı" və "Baku" axşam qəzetlərinin redaktoru olmuş, BDU-da jurnalistika məsələlərinə aid dərs demişdir.

**23 dekabr:** Motor yağları üzrə alim, texnika elmləri doktoru, Azərbaycan Dövlət mükafatı laureatı, Fatma Süleymanova (1920—1979) anadan olmuşdur. Neft-Kimya Prosesləri İnstitunda laboratoriya rəhbəri işləmişdir.

**24 dekabr:** Azərbaycan tarixinə aid fundamental tədqiqat əsərlərinin müəllifi, şərqşünas alim, müharibə iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı **Ziya Bünyadov** (1923—1997) Astarada anadan olmuşdur. EA Tarix İnstitutunun direktoru işləmiş, millət vəkili olmuşdur. Sui-qəsd nəticəsində öldürülmüşdür.

**25 dekabr:** Ədəbiyyatşünas alim, professor **Əli Sultanlı** (1906—1960) anadan olmuşdur. ADU-də dekan, kafedra müdiri, prorektor işləmiş, elmi-tədqiqat əsərləri, dərsliklər yazmışdır.

**26 dekabr:** Xalq artisti, baletmeyster **Əminə Dilbazi** (1919—2010) dünyaya gəlmişdir. Opera və Balet Teatrında bir sıra tamaşalarda rəqslərin quruluşunu vermiş, pedaqoji fəaliyyət göstərmişdir.

**27 dekabr:** Xalq artisti, görkəmli pianocu, beynəlxalq müsabiqədə qran-pri mükafatı laureantı Fərhad Bədəlbəylinin ad günüdür. 1947-ci ildə Bakıda doğulmuşdur. Bakı Musiqi Akademiyasının rektorudur.

**28 dekabr:** SSRİ və Azərbaycanın xalq artisti, müğənni **Zeynəb Xanlarovanın** ad günüdür. Bir çox xarici ölkələrdə də musiqimizi, mədəniyyətimizi təbliğ edir, Milli Məclisin deputatıdır.

**29 dekabr:** Yazıçı Əzizə Cəfərzadə (1921—2003) Şamaxıda anadan olmuşdur. Tarixi romanları, hekayələri var. Azərbaycan Dövlət Universitetində müəllim işləmişdir.

*Unutsaq unudularıq*

# Xatirələrdə qalan insan

Aqillər dünya bir pəncərəyə bənzəmiş, hər kəs bu pəncərədən baxar gedər—deyiblər. Baxmaq da iki cürdür. Mənalı və mənasız. Gəlib gedənlər isə yaxşı və ya pis kəslər kimi yaddaşlarda qalır. Yaxşıları isə hes kim unutmur, tez-tez yad edirlər.

Belə insanlardan biri də soxlarının yaxşı insan kimi tanıdığı mərhum Tahir Şükürovdur. Yüksək intellektə malik olan bu ziyalı çox dəyərli və qədirbilən idi.

Tahir Şaban oğlu Şükürov 1933-cü ildə Bum qəsəbəsində (o vaxtlar kəndində), əkinçi ailəsində dünyaya gəlib. Anası Nobat xala da zəhmətkeş insan olub. Halal çörəklə böyüyən Tahir Şükürov 1941-ci ildə Bum qəsəbə (kənd) tam orta məktəbinin birinci sinfinə qədəm qoyub. 1951-ci ildə 10-cu sinfi bitirərək kamal attestatı alıb. Elmə hədsiz marağı olan T. Şükürov həmin il o vaxtkı K. Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun ticarət-iqtisadiyyat şöbəsinə qəbul olunur. 1955-ci ildə ali təhsil alaraq doğma Buma qayıdır. Səhhətinə görə 2 il heç bir yerdə işləmir. 1957-ci ilin aprel ayında Qəbələ (o vaxtlar Qutqaşın) rayon İstehlak Cəmiyyətində əmtəəşünas kimi əmək fəaliyyətinə başlayır. 1958-ci ildə həmin idarədə ticarət şöbə müdiri vəzifəsinə irəli çəkilir.

T. Şükürov 1963-cü ildə Bum qəsəbəsindəki sənaye malları mağazasına müdir təyin edilir. 1966-cı ilin mart ayında onu yenidən əvvəlki vəzifəsinə bərpa edirlər. İşlədiyi dövrlərdə hamı ondan razılıq edir. Tahir əmi şirin dili, gözəl davranışı ilə hamının qəlbinə yol tapa bilirdi.

1976-cı ilin yanvar ayında onu Zarağan kəndindəki süd zavoduna müdir təyin edirlər. Burada da o, işinin öhdəsindən layiqincə gəlir. Yaxşı işinə görə onu Azərittifaq dəfələrlə fəxri fərmanlarla təltif edib. Öz işinin öhdəsindən layiqincə gələn, ondan zövq alan Tahir Şükürov səliqəli geyinməyi də çox xoşlayırdı. Bu insan sadəliyi, səmimiliyi ilə el arasında dərin hörmət və rəğbət qazanmışdı. Hamı onu çörəkverən bir insan kimi tanıyırdı və hazırda bu cür də xatirələrdə qalıb.

Tahir əmi səmimi və mehriban ailə başçısı idi. Bu dünyada ağıllı və savadlı övladlar qoyub gedib. Yeddi övlad böyüdüb, tərbiyə verib onlara. Hamısı da atalarına oxşayır əməlləri-lə.

Elin dərin hörmətini qazanmış Tahir Şükürov 1995-ci ildə öz doğmalarından ayrılıb əbədiyyətə qovuşub. Onun xatirəsi el-obada həmişə hörmətlə yad edilir.

Allah Tahir əmiyə qəni-qəni rəhmət eləsin!

**Emin BARATOĞLU,**
**Bum qəsəbəsi.**